# GƏNCƏ ŞƏHƏRİNİN SOSİAL-İQTİSADİ İNKİŞAFI: REAL VƏZİYYƏT VƏ PERSPEKTİVLƏR

**Gəncə çox qədim, gözəl tarixi şəhərdir. İndi şəhər qədim simasını saxlamaqla, yeni, müasir yanaşma ilə daha da gözəlləşir.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

Müasir tariximizin, inkişafımızın bütöv bir salnaməsi, onun da hər bir səhifəsi, hər bir sətri Türk dünyasının fenomeni, müdrik, əbədiyaşar Heydər Əliyevin qüdrətli və qızıl əlləri ilə yazılıb. Bu gün bu güclü strategiya və innovativ iqtisadi inkişaf praqmatik ölkə başçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən yeni mərhələdə uğurla davam etdirilərək, milli mənafeyə və əhalinin rifah halının daha da yüksəlməsinə önəm vermişdir. Bu gün çiçəklənmiş Azərbaycan davamlı və sürətli inkişaf yolunda nurlu sabahlara doğru inamla irəliləyərək, beynəlxalq aləmdə qüdrətli dövlət kimi təqdim olunur. Odlar Yurdunun ən qədim siyasi və mədəniyyət mərkəzi, füsunkar güşələrindən və cəvahirindən olan Şeyx Nizami yurdu davamlı və kompleks inkişafdadır.

Aparılan irimiqyaslı bənzərsiz, kompleks abadlıq-quruculuq işləri, möhtəşəm layihələrin icrası, sözün əsl mənasında şəhərin mənzərəsini qədimi ornamentlərini saxlamaqla gözəlləşdirmiş və yeniləşdirmişdir. Bu son 5 ildə, mübaliğəsiz, əsrə bərabər iş görülmüşdür desək düzgün çıxardı. Məhz bunun bariz nümunəsidir ki, birinci dəfə olaraq, Gəncə Avropanın Gənclər Paytaxtı seçilmiş, qitənin çox əhəmiyyətli şəhərlərindən birinə çevrilmişdir. Çox az bir zaman kəsiyində Gəncə şəhərinin 2016-cı ildə Avropa Gənclər Paytaxtı seçilməsi ilə əlaqədar, şəhərdə 1,8 hektar torpaq sahəsində möhtəşəm "Avropa Gənclər Paytaxtı" parkı salınmış, mərkəzində hündürlüyü 5 metr olan əzəmətli "Gəncliyin qanadları" abidəsi ucaldılmış, parkın dizaynına xüsusi elementlər əlavə etməklə, zövqlü formalarla zənginləşdirilmişdir. Bu gün paytaxt istiqamətindən şəhərə daxil olan hər kəs möcüzələr aləmi ilə üzləşir. Yolun sağ və sol tərəflərində ucaldılan rəmzi möhtəşəm və əzəmətli Gəncə Qala Qapıları - Arxeologiya və Etnoqrafiya Muzeyi Abidə Kompleksi bir növ şəhərin qədim tarixini özündə əks etdirir. Burada hündürlüyü 65 metrdən yuxarı olan əzəmətli dövlət atributu olan müqəddəs bayrağımız, Türk dünyasının fenomeni, ümummilli liderin əzəmətli abidəsi, müasir üslubda işıqlandırma sistemi, bir-biri ilə uzlaşan fəvvarələr, ətrafdakı yaşıllıqlar və təravətli gül-çiçəklər qalaya xüsusi görkəm, gözəllik verir. İrəlilədikcə 3 km uzunluğunda sağ və sol tərəfdəki yeniliklər və zövqlə işlənmiş memarlıq elementləri hər bir insana zövq verir. Analoqsuz, möhtəşəm Şeyx Nizaminin rəmzi - yüksək zövqlə işlənmiş "Xəmsə"si hamını valeh edir. Boylana-boylana bir-birindən maraqlı kompozisiyaya baxdığından, şəhərə nə vaxt girdiyindən belə xəbərin olmur. Gəncədəki, Gəncə! - Hər tərəf yaşıllıq, səliqə-sahman, sanki ətirli bir solmaz çiçəkdir. Uzun illər alaq basmış parklar, xiyabanlar, çayın sahilləri, dünyada ən böyük parklar cərgəsində olan köhnə adı ilə desək "Xatirə parkı" dağılıb-getmiş, sovetlər dövründən qalma heykəl və büstlər qırılıb-korlanmış, suvarma sistemi sıradan çıxmış, ağaclar qurumuşdur. Bu boş və bərbad ərazidə, az müddət içərisində alternativi olmayan, ümummilli liderin adına layiq, möhtəşəm Heydər Əliyev mərkəzi, ecazkar təbiətə malik istirahət parkı, girişdə möhtəşəm "Zəfər tağı" ucaldılmışdır ki, buraya gələn qonaqlar və sakinlər bu açıq seyrangahdan şəhərin və füsunkar Heydər Əliyev parkının mənzərəsini seyr edirlər. Əfsanəvi gözəlliyi ilə insanları məftun edən möcüzəli süni "göl", ba-



laca fidanlar üçün isə fantastik əyləncə mərkəzləri yaradılmışdır. Ölkə başçısı Gəncə şəhərinə növbəti səfəri zamanı bunu çox böyük qiymətləndirmiş və demişdir: "Gözəl bir göl, amfiteatr yaradılıbdır. Yəni bu, doğrudan da bir möcüzədir". Gölün ətrafına nadir ağaclar və dekorativ kollar əkilmiş, yaraşıqlı oturacaqlarla təchiz olunmuşdur. Dünyanın beş ən böyük parkı arasında yer tutan, 450 hektar sahəsi olan möhtəşəm Heydər Əliyev park- kompleksinin ərazisində, uzunluğu 354 metr, eni 170 metr, dərinliyi 3 metr olan bu əfsanəvi "göl"ün içərisinə 175000 ədəd ən bahalı balıq olan "Yapon sazanı" buraxılmışdır. Sinirsiz böyümə potensialı ilə insanları heyrətə salan bu balıq hamını məftun edir, balaca fidanlar onlara baxmaqdan yorulmaq bilmir, əfsanəvi balıqlarsa öz çevik və qeyri-adi hərəkətləri ilə onları özlərinə cəzb edir, daimi sevimlisinə çevrilirlər.

Bəli, Gəncədə davamlı və sürətli quruculuq, yeniləşmə səngimir. Son 5 ildə Gəncə şəhəri sözün əsl mənasında sökülüb-təzədən tikilib desək, yanılmarıq. Görülən işlər sakinlərin rahatlığı, onların asudə vaxtlarının daha səmərəli təşkili məqsədi daşımaqla yanaşı, qədimliyini qoruyaraq müasirləşmiş Gəncənin gözəlliyinə əlavə çalarlar qatır. Şəhəri iki hissəyə bölən qədim Gəncə çayının sağ sahilində reallaşan möhtəşəm "Gəncəçay" Park-bulvar kompleksi sakinlərin ən sevimli guşəsinə çevrilmişdir. Başlanğıcını Kiçik Qafqazdan götürmüş bu möhtəşəm Gəncə çayı kiçik çayları da özünə toplayaraq əzəmətli Kür çayına tökülür. Yaz vaxtı aşıb-daşan, şıltaqlıq edən bu çay, şəhərin memarlıq simasında böyük rol oynayır. Məhz bu baxımdan burada yaradılan bulvar, qədim Gəncə memarlığının ən müasir şəhərsalma və memarlıq nümunələri ilə zənginləşdirilmişdir. Çay boyunca yeni yaradılan bulvar kompleksində geniş abadlıq-quruculuq işləri aparılıb, yaşıllıq zolaqları salınıb, qazonlar arasından boylanan gül-çiçəklər ətrafa xüsusi təravət verir. Qeyri-adi oturacaqlar, quraşdırılmış analoqsuz fantastik fəvvarələr ərazinin gözəlliyini daha da artırır. Fevralın 17-də ölkə Prezidenti cənab İlham Əliyevin növbəti səfəri zamanı "Gəncəçay" Park-bulvar kompleksi ilə tanış olarkən bu işlərə xüsusi dəyər vermişdir. Uzunluğu 1,2 kilometrdir, ümumi sahəsi 34 hektar olan bu kompleksdə istirahət üçün hərtərəfli şərait yaradılmış, 15 fəvvarə və müxtəlif kompozisiyalı 10 heykəl quraşdırılmışdır. Bulvarda Bayraq Meydanı, "Əli və Nino" kompleksi, Mətbuat evi, Kitab evi, Uşaq Əyləncə və Ticarət Mərkəzi, altımərtəbəli və yeddimərtəbəli üç yaşayış binası, müasir, dünya standartlarına uyğun üç kafe, restoran və kinoteatr, açıq havada fantastik attraksionlar və digər sosial obyektlər inşa edilmişdir ki, bunlara ecazkar bulvarın "mirvarisi" desək yanılmarıq. Burada 1,7 kilometr uzunluğunda velosiped yolu və iki velosiped dayanacağı inşa edilib, böyük monitor quraşdırılıb. Ümumiyyətlə, bu bulvar memarlığın ən son nailiyyətlərini özündə əks etdirir. Azərbaycanda ilk dəfə olaraq, Qurban Səidin müəllifi olduğu, "Əli və Nino" əsəri əsasında hündürlüyü 3,5 metr olan əzəmətli heykəl ucaldılmışdır ki, Azərbaycan və gürcü xalqlarının dostluğuna və məhəbbətinə ithaf edən bu abidə Çin, Fransa və Gürcüstanda ucaldılmışdır. Bu abidənin möhtəşəmliyi və fərqi ondadır ki, heykəlin ətrafında süni tüstü effektləri verilmişdir ki, bu da aşiqlərin məhəbbətlərinin səmada uçması anlamına gəlir. Abidənin ətrafında yaradılmış 3 fəvvarə vizual olaraq göz yaşlarını xatırladır. Heykəl Şərq üslubunda, lakin modern formadadır. Ölkə Prezidenti inşa edilmiş hər bir elementlərlə tanış oldu, hətta, təzə salınmış asfalt yolda nəqliyyatı özü idarə etdi və böyük razılıqla, xeyir-duasını verdi. Tam mübaliğəsiz demək olar ki, əsrarəngiz təbiəti, füsunkar gözəlliyi, təravətli görkəmi, maraqlı dizayn və milli elementləri ilə zəngin olan bulvar kompleksi, on minlərlə qədirbilən gəncəlilərin və bölgə sakinlərinin ecazkar istirahət zonasına çevrilmişdir.

Ulu öndər Heydər Əliyevin mədəniyyət siyasətini uğurla davam etdirən Prezident cənab İlham Əliyev mədəni həyatımızın zənginləşdirilməsi, milli-mənəvi dəyərlərimizin qorunması və inkişafı, Azərbaycan mədəniyyətinin beynəlxalq aləmə inteqrasiyası istiqamətində çox əhəmiyyətli tədbirlərin reallaşmasını təmin etmişdir. VIII əsrə aid tarixi memarlıq abidəsi - xalq arasında Göy günbəz, Göy məscid, yaxud Göy İmam kimi tanınan "İmamzadə" kompleksi isə Gəncə şəhərinin və bütövlükdə ölkənin ən maraqlı memarlıq abidələrindən biridir. "İmamzadə" kompleksi Gəncənin memarlıq məktəbinin gözəl nümunəsi, ən qiymətli abidəsi, incisi, sözün əsl mənasında tarixin yadigarıdır. Hər bir divarında, daşında bənzərsiz naxışlar, yazılar analoqu olmayan sənət əsəri kimi insanları valeh edir.



Bu dini kompleks Gəncənin qədimliyini sübut etməklə yanaşı, onun İslam aləmindəki yerini və nüfuzunu da bir daha göstərir. "İmamzadə" türbəsinin XIV əsrin sonu - XV əsrin əvvəllərində, ətrafındakı məscid, sərdabə və digər türbələrin isə XVII əsrdə 5-ci imam Məhəmməd Bağırın oğlu İbrahimin qəbri üstündə tikilmişdir. Bu faktı məqbərənin günbəzinin daxilindəki yazılar da təsdiqləyir. Ümummilli lider Heydər Əliyev rəhbərlik etdiyi bütün dövrlərdə Azərbaycanda tarixi abidələrin, bütün müqəddəs dini məbədlərin qorunub saxlanmasına, təmirinə və bərpasına xüsusi fikir vermişdir. Məhz onun layiqli davamçısı, praqmatik dövlət başçısı cənab İlham Əliyevin diqqət və qayğısı nəticəsində Azərbaycanın ən qədim məscidi olan, min ildən yuxarı tarixi olan, "İmamzadə" türbəsi yüksək səviyyədə əsaslı yenidən qurulmuşdur. Belə ki, tikililərin üzlənməsi və daxili interyerdə bəzək, naxış işləri, eyni zamanda hər biri 200 nəfər üçün nəzərdə tutulmuş Hüseyniyyə və Zeynəbiyyə adlanan yaraşıqlı zallar hazırlanmış, ziyarətgahın üstündə 28 metr hündürlüyündə möhtəşəm günbəz, tikintinin sağ və sol hissəsində 2 minarə, kompleksin həyətində isə ziyarətə gələnlər, zəvvarlar üçün yüksək səviyyədə hər bir şəraitli mehmanxana tikilmişdir. Ərazisi 2,5 hektar olan əsaslı təmirə başlanmış kompleksin 36 kiçik və 5 böyük günbəzdən ibarət məscidi, 200 kv. m sahədə qurbangahı, 1000 nəfərlik ehsangahı və 500 avtomobillik dayanacağı inşa edilmişdir. İki zaldan ibarət namazgahda nəfis xəttatlıq işləri görülüb və kaşı materiallarla örtülmüşdür. Zövqlə quraşdırılmış işıqlandırma sistemi diqqəti çəkir, əzəmətli giriş qapısı qədimi ornamentlərlə, naxışlarla bəzədilmişdir. Bəli, bu baxımdan, Azərbaycanda din-dövlət münasibətləri çox müsbət istiqamətdə inkişaf edir, ən yüksək, nümunəvi səviyyədədir. Bu gün Azərbaycanın səhiyyə sistemində aparılan uğurlu islahatlar, möhtəşəm layihələr, tibb müəssisələrinin maddi-texniki bazasının son dərəcədə möhkəmləndirilməsi, təchizat və kadr hazırlığı ilə bağlı görülən məqsədyönlü işlərin bəhrəsini, hər bir Azərbaycan vətəndaşı öz həyatında hiss etməkdədir.

Dövlət başçısı cənab İlham Əliyevin öz xalqının rifahının yaxşılaşdırılması, sosial müdafiəsinin yüksəldilməsi və sağlamlığının qorunması bütün fəaliyyətinin əsas məqsədini, onun dövlətçilik fəlsəfəsinin leytmotivini təşkil edir. Gəncədə də aparılan möhtəşəm abadlıq-quruculuq işləri eyni zamanda səhiyyə müəssisələrində də öz əksini tapmışdır. Şəhərin bütün səhiyyə müəssisələrində yenilik, səliqə-sahman, yüksək səviyyəli qulluq əhalinin səhiyyə işçilərinə inamını daha da artırmışdır. 17 fevral 2016-cı il tarixində ölkə Prezidenti cənab İlham Əliyevin növbəti səfəri zamanı əsaslı təmirdən çıxmış Gəncə Abbas Səhhət adına 1 nömrəli şəhər xəstəxanasında yaradılan şəraitlə tanış olmuş, razı qalmış və xeyir-duasını vermişdir. Beş mərtəbəli, 245 çarpayılıq Gəncə Şəhər Abbas Səhhət adına 1 nömrəli şəhər xəstəxanasında quraşdırılan tibbin ən son nailiyyətləri olan müasir, dünyanın aparıcı ölkələrin ən nüfuzlu şirkətlərin məhsulu olan avadanlıq və cihazlar xəstələrin xidmətindədir. Burada cərrahiyyə, travmatologiya, urologiya, terapiya, hemodializ, nevrologiya, ginekologiya, dəri-zöhrəvi şöbələri fəaliyyət göstərir. Bəli, bu son dərəcədə müasir səhiyyə ocağı ölkə Prezidenti cənab İlham Əliyevin Azərbaycan xalqına, Gəncə sakinlərinə bir daha diqqət və qayğısının bariz nümunəsidir. Bu gün burada yaradılan bu şərait ilk növbədə, tək Gəncə deyil, ətraf bölgələrdə yaşayan əhalinin sağlamlığının da qorunmasına xidmət edir. Əminliklə qənaətə gəlmək olar ki, Gəncənin innovativ inkişafı, vətəndaşların sosial-mədəni səviyyəsinin yüksəlişi, füsunkar gözəlliyə malik bu istirahət mərkəzlərinin yaradılması sosial layihə olmaqla yanaşı, həm də dünyanı qlobal iqtisadi böhran cənginə aldığı bir vaxtda, belə bir çox sosialyönümlü işlərin görülməsi, sözün əsl mənasında Azərbaycanda həyata keçirilən uğurlu, müdrik və uzaqgörən siyasətin davam etməsindən xəbər verir.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

*Gəncə Şəhər İcra Hakimiyyəti və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun birgə keçirdiyi müsabiqəyə təqdim etmək üçün.*